# "Bismillah" filmində müəlliflərin vizual forma axtarışları

*Azərbaycan kinosunda kinematoqrafik təsvir formalarının sürətli təşəkkül mərhələsi "Azdövlətkinofabrika"nın 1925-ci ildə istehsal etdiyi "Bismillah" filmi ilə başlanır və bu bir sıra obyektiv, eləcə də subyektiv amillərlə bağlıdır.*

Əvvəla, həmin mərhələdə bolşevik ideoloqlarının kinematoqrafiyanın üzərinə qoyduqları çoxşaxəli təbliğat və təşviqat funksiyaları Azərbaycan kinosunu yeni bədii-estetik, mənəvi-əxlaqi dəyərlərin daşıyıcısına çevirdi. Rus dilini bilməyən yerli əhali arasında aparılan təbliğat kompaniyasında güc və təzyiqi deyil, "ardıcıl inandırma" üsulunu seçən bolşeviklər üçün özünəməxsus vizual dil üslubuna malik olan kino, əvəzolunmaz ünsiyyət elementinə, "əsaslı yeni mədəniyyət"in yaradılmasında mühüm rol oynayan qüdrətli vasitəyə çevrildi. 1925-ci ildən etibarən AFKİ "...uğursuzluğa düçar olmuş Hollivud klassiklərinin zəif təqlidi"(1) ilə deyil, "...şərq adamlarının məişətini, psixoloji durumunu, müsəlman kəndlisinin maraqlarını, kommunist təsəvvürləri ilə heç uzlaşmayan tarixi keçmişini əks etdirən filmlər"in(2) istehsalına başladı.

Kommunistlər anlayırdılar ki, "sosialist realizmi"nin ali dəyərlərinin ən kütləvi təbliğini Azərbaycanda təmin edəcək kino, M.F.Axundov "tənqidi realizmi"nə, M.Ə.Sabir satirasına, C.Məmmədquluzadə və Ü.Hacıbəyov "acı gülüşü"nə, C.Cabbarlı mübarizliyinə istinad edərək müvəffəqiyyət qazana bilər. Əsərlərində kübarların meşşan həyat tərzini, məmur özbaşınalığını, ruhani riyakarlığını, cəhalət və köləliyi ifşa edən bu müəlliflər, yaşadıqları cəmiyyətin sosial problemlərini, "məzlum xalq"ın "acı taleyi"ni, qadın hüquqsuzluğunu önə çəkir, "mədəni model"in yeni formalarını axtarırdılar.

Azərbaycan ziyalılarının maarifçilik meyllərindən məharətlə istifadə edən bolşeviklər teatr səhnəsində, mətbuat səhifələrində ilkin aprobasiyadan keçmiş həmin mövzular əsasında kinossenarilərin hazırlanmasına diqqəti xeyli artırdı və onlara quruluş vermək üçün yerli mütəxəssisləri cəlb etdi. A. M. Şərifzadə, C. Cabbarlı kimi milli kadrların Azərbaycan kinosuna gəlişi həmin zərurətdən irəli gəlirdi və ilk milli filmlərimizdə realist üslub, məhz onların adı ilə bağlıdır.



Sovet təbliğat maşınının ilk hədəfi cəmiyyətin həyatında mühüm rol oynayan islam dini və onun yerlərdə fəaliyyət göstərən təmsilçiləri oldu. Bolşeviklər başa düşürdülər ki, islam dəyərləri Azərbaycan cəmiyyətində "sovet həyat tərzi"nin bərqərar olmasına əsas maneədir. Yerlərdə ruhani özbaşınalığından, riyakar mollaların bəd əməllərindən narazı qalan əhalinin mənfi münasibəti, onların fəaliyyəti nəticəsində zərər çəkmiş insanların nifrəti, mütərəqqi ideyalarla yaşayan ziyalıların islam cəmiyyətini modernləşdirmə istəyi təbliğat kompaniyasının uğurla aprılmasına əlverişli zəmin idi. Çox keçmədi ki, bu məqsədlə yaradılan və R.Axundovun, Ə.Qarayevin, H.Sultanovun və başqalarının üzv olduğu xüsusi komissiya "...Məhərrəmliklə bağlı mərasimlərin mənfi tərəflərini türk fəhlə və kəndlilərinə başa salmaq, cəhalətdə yaşayan kütlələri aldadaraq dini ayinlərin keçirilməsində tə- ... mənna güdən ruhanilərin bəd niyyətlərini ifşa etmək" (3), "Aşura günündə zəncirvurma kimi dini fanatizmlə mübarizə aparmaq"(4) üçün təbliğat xarakterli müxtəlif tədbirlər planı işləyib hazırladı. Bölgələrdə fəaliyyət göstərəcək "Tənqid-təbliğ teatr" truppasının yaradılması, yerli əhalinin, "jenotdel"lər vasitəsilə azərbaycanlı qadınların bu işə cəlb olunması həmin planın tərkib hissəsi idi.

İslamın cəmiyyətdə bərqərar olmuş dayaqlarını sarsıdacaq ssenarilər əsasında tammetrajlı əsərlərin ekranlaşdırılması, bu işə yerli kadrların cəlb edilməsi komissiyanın həmin istiqamətdə reallaşdırdığı ən ciddi və kütləvi tədbirlərdən biri oldu. 1924-cü ildə Leo Murun ssenarisi əsasında lentə köçürülən "Bayquş" kinodramında rejissor G. Kravçenko həmin mövzuya toxunmuş və hətta, kinooperator V.Lemke, rejissor asisstenti A.Quliyev, aktyor M.Məmmədov və başqaları ilə birlikdə 1924-cü il sentyabrın 28-də aparılan çəkilişlər zamanı Bakının Şixov kəndində Aşura günü ilə bağlı dini ayinləri yerinə yetirən yerli əhali tərəfindən döyülmüşdülər(5).

İdeoloji sərrastlıq, bədii tamlıq, çeşidli vizual nəql formaları, cilalanmış montaj üslubu, məharətli aktyor oyunu baxımından daha ciddi təsir bağışlayan "Bismillah" filmi aktual mövzuların ən peşəkar ekran təcəssümü olmaqla yanaşı, milli kinomuzun yeni inkişaf mərhələsinin əsasını qoydu ... və "...hətta, müasir tamaşaçının marağına səbəb olan bu film, səssiz kinomuzun ən parlaq bədii uğuru sayıla bilər"(6).

"Xüsusi Şöbə"nin sədri M.Qasımovla AFKİ-nin rəhbəri H.Terequlov arasında imzalanmış 31 may 1924-cü il tarixli müqaviləyə(105) əsasən üzərinə qarşılıqlı öhdəliklər götürmüş hər iki tərəfin yarıbayarı maliyyələşdirəcəyi və Məhərrəmliyə qarşı başlanan təbliğat kompaniyasının ilk günlərinə qədər hazır olunması nəzərdə tutulan, "...səmavi dəftərxana" qanunları, kəndlərimizdə özünə möhkəm yer eləmiş onun təmsilçiləri, xüsusilə də şiə müsəlmanlarının qanlı ayinləri ilə barışmaz mübarizə"(7) aparacaq "Bismillah" filminin çəkilişləri müxtəlif səbəblər üzündən xeyli uzanmış və onun müəllifləri istehsalat prosesi zamanı bir sıra problemlərlə üzləşmişlər(8).

"Xüsusi Komissiyanın" tapşırığı ilə P. Blyaxinin yazdığı ssenarini çəkmək məsuliyyəti öncə milli teatr rejissoru A. M. Şərifzadə ilə rejissor A. Litvinova həvalə edilir. 1924-cü ilin sentyabrında A. Litvinovu V.Ballyuzek əvəz edir. Lakin, maliyyə çatışmazlığı səbəbindən filmin istehsalı yenidən dayandırılır. Digər tərəfdən, filmdəki baş rolların ifasına kənardan aktyor dəvət etməyə çalışan V.Ballyuzeklə razılaşmayan A.M.Şərifzadə rol bölgüsündə milli teatr truppasına üstünlük verir və haqlı olaraq hesab edir ki, şərqlilərin həyat tərzinə, yerli adət-ənənələrə bələd olan aktyorların ifasında filmdəki obrazlar daha inandırıcı alına bilər.